# Ağac lövhələrdə yaşayan tarix

Xəttatlıq haqqında ədəbiyyatda, dövri mətbuatda çox yazılıb. Bu sənətin yaranma tarixi, inkişafı bütün dövrlərdə maraqla qarşılanıb və onu islam aləmində elmin yarısı adlandırıblar. İndi isə xəttatlıqdan bəhrələnərək onu ağacyonma ilə birləşdirən xəttoyma sənətindən, bu peşənin Azərbaycanda necə yaranması və digər əlyazmalardan nə ilə fərqlənməsindən danışacağıq. Eyni zamanda, düşüncə və bacarığını ağac lövhələr üzərinə həkk etməklə az qala yeni bir janr yaradan sənətkardan, onun timsalında ağacla insanı bağlayan qırılmaz ünsiyyətdən söz açacağıq.



Bunun üçün Azərbaycanda xəttoyma sənətinin ustadı və sənətkarın öz dili ilə desək, ağac məmulatlarını məişətdən kənara çıxarıb yaradıcılığının bir hissəsinə çevirən Seyfəddin Mənsimoğlu (Məmmədvəliyev) ilə əlaqə saxlayıb yaşadığı ünvana yollandıq...

Öncə S.Mənsimoğlunu tanıyaq: o, 1936-cı ildə Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndində anadan olub. Ə.Əzimzadə adına Rəssamlıq Məktəbini və M.Əliyev adına İncəsənət İnstitutunu bitirib. Əməkdar incəsənət xadimidir. 1964-cü ildən AMEA-nın Əlyazmalar İnstitutunda işləyir. Burada onun işi qədim əlyazma kitablarının surətini - müxtəlif xəttatların əsərlərini fotoya köçürmək olub. Çox keçməyib ki, surətini köçürdüyü kitablar onun yaradıcılığında yeni səhifələr açıb. Xüsusilə ərəb əlifbası ilə yaxından təmasda olması sənətkar üçün möcüzəli bir açar olub. Elə taxta lövhələr üzərində möcüzələr yaratmağa da Əlyazmalar İnstitutuna gəldikdən sonra başlayıb.

## "Evimiz də, əlimizin dayağı da, tabutumuz da ağacdan olub"

S.Mənsimoğlu işi ağaclarla birbaşa bağlı olduğundan öncə ağac, onun məişətimizdə rolu haqqında bilgilərindən danışdı. Bildirdi ki, insan yarandığı vaxtdan ağaclarla, bitkilərlə ünsiyyətdə olub, ondan istifadə edib: "Ta qədim zamanlarda ağacdan çoxlu ev əşyaları - çömçə, qaşıq, müxtəlif qablar və çoxlu sayda avadanlıqlar düzəldilib. Zaman-zaman bəzəkli əşyalar, qiymətli suvenirlər də ağacdan hazırlanıb. Evimiz də, əlimizin dayağı da, tabutumuz da ağacdan olub. Bütün bunlar insanın daxilinə keçib və ayrılmaz bir bağlantı yaradıb. Bu mənada insanı ağacsız təsəvvür etmək mümkün deyil. Ağac varsa, insan üçün çox şey var". Həmsöhbətimiz qeyd etdi ki, texnologiyanın inkişafı nəticəsində bu gün metaldan və plastmasdan çoxlu sayda ev əşyaları, müxtəlif avadanlıqlar hazırlanır, hər birimiz də bunlardan istifadə edirik: "Ancaq ən yaxşıları yenə də ağacdan hazırlananlar hesab olunur. Çünki ağacın insan orqanizminə xeyri çoxdur. Hətta yataq çarpayısını ağacdan hazırlatdırırlar ki, revmatizmanın qarşısını alsın, insanın qamətini yaxşı saxlasın. Ağacdan hazırlanan əşyalar bəzək və görkəminə görə də orijinaldır".

S.Mənsimoğlu bu gün əllərinin sığalı ilə ömrü bitmiş ağaclara yenidən həyat verir. Xəttatlığın kufi, nəstəliq, sülüs, şikəstə və digər növləri ilə ağac üzərində gözəl əsərlər yaradır. Əvvəllər yalnız dini mövzuda əl işləri hazırlasa da, sənətkar sonra başqa sahələrə də müraciət edib.

Bu sahədə ustadının olmadığını qeyd edən xəttat yeganə istinadgahının əlyazmalar olduğunu deyir və xəttoyma sənətinə başladığı ilk illəri belə xatırlayır: "Bir dəfə Türkiyədə çap olunmuş "Rəsmli türk ədəbiyyatı" tarixi kitabı əlimə keçdi. Kitabda üç formada bədii xətlə yazılmış Quran ayələrinə rast gəldim. Yazıların altında bir seçdirmə var idi. Burada "Ərəb əlifbası türk sənətkarları əlində" yazılmışdı. Həmin vaxta qədər belə yazılara yalnız qədim başdaşlarında və məscid divarlarında rast gəlmişdim. Ürəyimdən keçdi ki, bu yazını ağac üzərində işləyim. Beləliklə, işə



başladım. Ömrümün 48-ci ilində ilk dəfə "Allah hər şeydən xəbərdardır" mübarək kəlamını ağac lövhə üzərində həkk etdim. Xəttoyma sənəti kimi ilk işim bədii xüsusiyyətinə və incəliyinə görə mütəxəssislər tərəfindən çox bəyənildi. Bundan ruhlanaraq ərəb əlifbası ilə yazılmış ayrı-ayrı söz və kəlamları orijinal, simmetrik kompozisiyalarda əks etdirməyə və bununla duyğu və düşüncələrimi ağac lövhələr üzərinə köçürməyə başladım". Beləcə, S.Mənsimoğlunun ağaclarla sonsuz ünsiyyəti yaranır və heç vaxt ayrıla bilməyəcəyi sənətlə birlikdə addımlamağa başlayır.

Seyfəddin usta işinin texnologiyasından da danışdı. Dedi ki, xəttoyma ilk baxışdan sadə görünsə də, əslində, çox zəhmət və səbir tələb edən, eyni zamanda, bir o qədər də zövq verən peşədir. "Əsər əvvəlcə kağız üzərində hazırlanır, süjet xətti qurulur. Sonra o taxta üzərinə köçürülür. Hazır işi qələmlə və ya mürəkkəblə ağaca köçürmək olmaz, onda materialın keyfiyyəti itə və nəticə səni qane etməyə bilər. Əsərin gözəlliyi təkcə xətlərin ağac üzərində səliqə ilə işlənilməsi ilə bitmir. Gərək quruluşu, kompozisiyası da gözəgəlimli olsun. Ona görə xüsusi yaradıcılıq qabiliyyəti, bədii təfəkkür olmalıdır. Fantaziyan olmasa, götürüb başqasının işini işləyə bilərsən, ancaq yeni nə isə yarada bilməzsən. Ümumiyyətlə, hər bir sənətin özəyində zövq və duyğu dayanır, sadəcə, onları hərəkətə gətirmək və istiqamətləndirmək lazımdır. İşin çətin və rahatlığı taxta üzərində yazının çox və azlığından, mürəkkəbliyindən, hansı xətlə işlənilməsindən, eyni zamanda kompozisiya quruluşundan asılıdır".

S.Mənsimoğlu həm ərəb, həm də latın əlifbası ilə hazırladığı əl işlərində Azərbaycan klassiklərinə geniş yer verir. N.Gəncəvi, M.Füzuli, X.Şirvani, N.Tusi, İ.Nəsimi və digər klassiklərin adlarını ağac lövhələr üzərində xüsusi kompozisiyalarla işləyir. Amma bu əsərlərdə təkcə klassiklərin adlarını yox, həm də onların yaradıcılıq aləmini təsvir edir. Onu da qeyd edək ki, xəttatın yaradıcılığında Füzuli ənənəsi xüsusi yer tutur. İndiyə qədər 5 əl işi böyük şairlə bağlı olub. Ən böyük əsəri 6-7, ən kiçiyini isə 2 aya hazırladığını deyən sənətkarın indiyə qədər 60-dan yuxarı əsəri var. Yaradıcılığının çox hissəsini ərəb əlifbası ilə işləyib. Xəttat bunu həmin əlifba ilə ağac lövhələr üzərində daha gözəl fantaziya qurmağın mümkünlüyü ilə izah edir.

## Xətt həm də alın yazısıdır

S.Mənsimoğlu deyir ki, işin sanballı alınması üçün ağacları da yaxşı tanımalısan: "Ağacın ərişi var, arğacı var. Kəsəndə sənə lazım olan yeri, onu necə götürməyi bilməlisən. Mən də baxıram, işimə uyğun olanları seçirəm. Əsasən qoz, fıstıq ağacları ilə hazırlanan əl işi daha keyfiyyətli olur. Bu cür bərk ağaclardan istifadə edəndə müəyyən çətinliklər yaranır, ancaq bilirsən ki, yaratdığın əsər uzunömürlü olacaq. Qoz ağacının möhkəmliyi ilə bərabər, həm də naxışları var".

Ağac sarıdan bəxtinin gətirdiyini deyən sənətkar onu da bildirdi ki, bəlkə də bu qədər yaşamağının və sağlamlığının başlıca səbəbi ağac üzərində özünü tapması və işindən zövq almasıdır. O, dolanbac və mürəkkəb cizgilərlə dolu taleyini bu xətlərdə yaşatdığı üçün onu həm də öz alın yazısı sanır.

Maraqlısı da odur ki, usta yaratdığı əl işində heç bir texniki vasitədən istifadə etmir. Əl işlərinin parıltılığını və keyfiyyətini artırmaq üçün onların üzərinə parça arasında sıxılmış qozdan alınan yağdan sürtür. Belə olduqda illər keçdikcə əsərin forması itmir, əksinə, görkəmi yaxşılaşır, parıltısı daha da artır.

Həm də öyrəndik ki, sənətkar ərəb qrafikasında əsərlərini daha çox güzgü simmetriyasında yaradır. Belə hazırlanan əsərləri qatlayanda bütün xətlər, naxışlar üst-üstə düşür, əksi o biri tərəfdə də görünür (yeri gəlmişkən, bizim qədim xalçalarımız da, onların üzərindəki naxışlar da belədir). Eyni zamanda, S.Mənsimoğlunun əl işlərində rəhil formasının hazırlanması da xüsusi yer tutur. Rəhil kitab qoyub oxumaq üçündür. Ustanın dediyinə görə, qədim rəhillərin quruluşu elədir ki, kitab onun üzərinə qoyulanda ona ancaq yuxarıdan baxmaq olur: "Mənim hazırladığım rəhildə isə maili baxmaqla da kitabı oxumaq mümkündür. Çünki kitabı rəhilin üzərində qoyanda ağırlığa görə istiqamətini dəyişmir".

S.Mənsimoğlunun yaradıcı işləri bir çox ölkələrdə maraqla qarşılanır. Almaniyada, Türkiyədə, Rusiyada və digər ölkələrdə onun yaradıcılığı və özü haqqında çoxlu yazılar yazılıb, çəkilişlər olub. Usta xaricdə yaradıcılığının yüksək marağa səbəb olmasını həmin ölkələrdə xəttoyma sənətinin olmaması ilə izah edir: "İşimlə bağlı Türkiyə, İran, Səudiyyə Ərəbistanı, Tunis və digər ölkələrdə olarkən gördüm ki, xəttatlığın başqa sahələri var, ancaq ağac üzərində xəttoyma sənəti heç yerdə yoxdur". Seyfəddin ustanın əsərləri ölkəmizlə yanaşı, xaricdə bir neçə sərgidə nümayiş olunub, muzeylərdə qiymətli əşya kimi saxlanılır. Hazırladığı irəhillərdən biri və Sultan Məhəmməd Təbrizi ilə bağlı yaratdığı əsər hazırda Berlindəki İslam Mədəniyyəti Muzeyində, Güzgülü formada olan ilk işi isə Türkiyədə qorunur.

Bu gün Seyfəddin ustanın sənətini davam etdirənlər də var. O, öz yaradıcılığı ilə tanınan onlarla xəttatlar, xəttoyma sənətkarı yetişdirib və onları özünün yetirmələri adlandırır. İki övladının da aralarında olduğu həmin sənətkarlar müəllimlərinin yaratdığı bu nadir məktəbin layiqli davamçılarıdırlar.

*Elnur HADIYEV,*
*"Azərbaycan"*